UNEC

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

**Təsdiq edirəm:**
**“Biznes və logistika”kafedrasının müdiri,**

**____________________dos. Əliyev M.Ə.**

## “TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİ”
## FƏNNI ÜZRƏ İŞÇİ – TƏDRIS PROQRAMI
## (SİLLABUS)

| I. FƏNN HAQQINDA MƏLUMAT | |
|---|---|
| **Fənnin kodu:** | *00860* |
| **Fənnin növü:** | *əsas* |
| **Tədris ili:** | *2023/2024* |
| **Tədris semestri:** | *Y3* |
| **Tədris forması:** | *əyani* |
| **Fakültə:** | *Biznes və menecment* |
| **Qrup:** | 942/944;946/948 |
| **Tədris yükü:** | |
| **Kredit sayı:** | *4* |
| **II. MÜƏLLIM HAQQINDA MƏLUMAT** | |
| **Fənni tədris edən müəllim:** | **Dos.Xudiyeva b/m.Hüseynova S.Y.,** |
| **Kafedra:** | **Biznes və logistika** |
| **E-mail ünvanı:** | pikakhanim.khudiyeva@unec.edu.az |
| **İş telefonu:** | |

## III. FƏNNİN TƏSVİRİ

Bazarın sürətli inkişafı, rəqabət şəraitinin sətləşdirilməsi, istehlakçı xidmətinin keyfiyyə -tinin yüksəldilməsi tələbi və s. şirkətlər qarşısında yeni-yeni vəzifələr qoyur. Müasir şəraitdə müəssisənin rəqabətə davamlı olmasını təmin etmək və öz güclü tərəflərindən məharətlə istifadə etmək üçün təşkilatlar tədarük zəncirindəki- xammal tədarükündən istehlakçıya satışdan sonrakı xidmətə qədər bütün dəyər yaratmaq proseslərini optimallaşdırmalıdırlar. Bu baxımnan, təchizat zəncirlərinin idarə edilməsi təşkilati prinsipləri və müasir informasiya texnologiyalarının im-kanlarını özündə birləşdirən vahid bir iş konsepsiyasıdır."Təchizat zəncirinin idarəedilməsi" fənninin məqsədionun bir elmkimi mahiyyətini və məzmununu, eləcə də təşkilatların praktiki fəaliyyətində onun tədbiqi sahələriniöyrənməkdir.

## IV. FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

"Təchizat Zəncirinin İdarəedilməsi" fənninin tədrisində əsas məqsəd tədarük zəncirinin idarəolunmasına dair qabaqcıl konsepsiya və yanaşmalarla tanış olmaq, tələbələrdə tədarük zən-cirlərinə biznes proseslərinin inteqrasiyasının əsas anlayışları və qanunauyğunluqları haqqında fikirləri formalaşdırmaq, rəqabət üstünlüyün əldə edilməsində təchizat zəncirinin düzgün idarə edilməsi, qərarların çevik və düzgünqəbulu nəticəsində riskləri minimallaşdırmaq və s.

Təchizat zəncirlərinin əsas olaraq göstərilən xidmət səviyyəsini, çatdırılma dəqiqliyini, surətini artıraraq məhsul (xidmət) satışından əldə olunan gəlir həcminin artırılması və müvafiq xərclərin azaldılması hesabına idarəedilməsini nəzərdə tutur.

### FƏNNİN TƏDRİSİ QARŞISINDA DURAN <u>VƏZİFƏLƏR</u> :

Fənnintədrisiqarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələri iqtisadi proseslərin qloballaşması şəraitində təchizat zənciri strategiyasının formalaşdırılmasına yanaşmalar, həyata keçirilməsinin forma və vasitələri ilə tanış etmək;
- bakalavr pilləsində təchizat zəncirlərinə inteqrasiyanın mahiyyəti barədə anlayışın forma-laşması;
- təchizat zəncirlərinin qurulması, idarə edilməsi və qərarların qəbuletmə bacarıqlarının inki-şafetdirilməsi;
- tədarük zəncirindəki xərcləri azaldaraq iqtisadi səmərəliliyini artıra biləcək müxtəlif metod və texnologiyaların, İT tədbiqinə yiyələnmək.

## V. ÖYRƏNMƏNIN NƏTICƏLƏRI:

Kursuntədrisi başa çatdıqdan və bütün mövzular mənimsənildikdən sonra tələbələr

### BILMƏLİDİRLƏR:

- TZ-nin əsas anlayışlarını, mahiyyətini, məqsədini. TZİE konsepsiyasının yaranmasına və inkişafına səbəb olan amillərini və təsirlərini
- TZİE-də strategiyanın növlərini, seçilməsini, strateji nəzarəti, planlaşdırmanın məqsədini, prinsiplərini, funksiyalarını
- Paylayıcı şəbəkənin layihələşdirilməsini və ona təsir edən amilləri, onlayn satış proqram-larınıvə paylama şəbəkəsində onların rolunu
- SCOR modelinin mahiyyətini və tədbiqi mərhələlərinin ardıcıllığını
- TZ-dətələbin proqnozlaşdırılmasına verilən əsas tələbləri

- Peşəkar fəaliyyətdə problemləri həll edərkən mənbələrə olan tələbatı qiymətləndirə və istifadəsiniplanlaşdırmağı
- TZ qeyri-müəyyənlik və risklərin dərəcəsinin müəyyənləşdirilməsi və qiymətləndirilməsini
- Nəqliyyat və gömrük tənzimlənməsiüzrə beynəlxalq müqavilələr haqqında məlumatları
- Fəaliyyət prosesində qərarlarının qəbul edilməsi xüsusiyyətləri və TZ müasir informasiya texnologiyaları haqqında bilikləri

**BACARMALIDIRLAR**:

- konsepsiyanın həyata keçirilməsinə mane olan amilləri müəyyənləşdirmək
- SCOR modelinin istifadəsi ilə tədarük zəncirindəki əsas prosesləritəhlil etmək
- tədarük zəncirinin planlaşdırma, nəzarət və audit məqsədləri üçün SCOR modelini istifadə etmək
- təchizat zəncirindəki münaqişə vəziyyətləri həlliüçüntəsirli mexanizmlər hazırlamaq
- zəncirdəkiriskləri idarə etmək
- tədarük zəncirlərinin monitoringini həyata keçirmək
- tədarük zəncirinin səmərəliliyini təhlil etmək
- idarəetmə qərarlarının hazırlanması üçüntəşkilatın fəaliyyətini təhlil edə və nəticələrini istifadə etməyi
- təşkilativə idarəetmə qərarlarıhazırlamalı və qəbul edilən qərarların nəticələriniqiymətləndirməyi

## VI. PREREKVİZİTLƏR

Fənnin tədrisiüçün öncədən tədrisi zəruriolan fənn yoxdur.

**Fənnin mühazirə mövzuları əlavə ediləcək**

Mövzu 1. Təchizat zəncirinin idarəedilməsi: əsas anlayışlar və terminlər
Mövzu 2. Təchizat zəncirinin dəyər yaradan komponentlər və əsas performans göstəriciləri
Mövzu 3. Təchizat zəncirinin idarəedilməsinin strategiyası, planlaşdırılması və layihələşdirilməsi
Mövzu 4. Təchizat zəncirində paylayıcışəbəkələrinin layihələşdirilməsi
Mövzu 5. Qlobal təchizat zənciri şəbəkələrinin layihələşdirilməsi və müasir yanaşmalar
Mövzu 6. Təchizat zəncirində tələbin proqnozlaşdırılması
Mövzu 7. Təchizat zəncirində satış və əməliyyatların planlaşdırılması və koordinasiya
Mövzu 8. Təchizat zəncirində anbar logistikası və ehtiyatların idarə edilməsi
Mövzu 9. Təchizat zəncirində qeyri-müəyyənlik və risklərin idarə edilməsi
Mövzu 10. Təchizat zəncirində nəqliyyat şəbəkələri
Mövzu 11. Təchizat zəncirinin idarə edilməsində satinalma qərarları
Mövzu 12. Təchizat zəncirində qiymətin əmələgəlməsi və gəlirlərin idarə edilməsi
Mövzu 13. Təchizat zəncirində nəzarət və audit
Mövzu 14. Təchizat zəncirinin idarə edilməsində informasiya texnologiyaları
Mövzu 15. Davamlılıq və Təchizat Zənciri

## VII. FƏNNİN TƏDRİS METODOLOGİYASI

Bu fənnin tədrisi zamanı ən müasir metodoloji alətlərdən və tədris üsullarından istifadə edilməsi nəzərdə tutulur.

Fənnin tədrisi prosesində müəllimin mövzu ilə əlaqədar məlumatı, interaktiv müzakirələrinaparılması planlaşdırılır.

## VIII. ƏSAS DƏRSLİK VƏ ƏLAVƏ ƏDƏBİYYAT

**Əsas dərslik:**


1. Sunil Chopra, Supply Chain Management: Strategy, Planning, and Operation, 2019, 7th Edition

**Əlavə ədəbiyyat:**

2. Həsənov E. Təchizat zəncirinin idarə olunmasının əsasları və terminlər lüğəti..B.,Qanun nəşriyyatı,2022
3. Tedarik zinciri yönetimi. Atatürk Üniversitetinin Açıq öyrətim fakültəsinin nəşri. Ərzurum, 2020
4. Tedarik zinciri yönetimi. Anadolu Universitetinin Açıq öyrətim fakültəsinin nəşri. 2013
5. Аникин Б. Логистика. Теория и практика : управление цепями поставок: учебник / [Б. А. Аникин и др.]. М.: Проспект, 2015. – 213 с.
6. Сергеев В.И. Управление цепями поставок. Учебник для бакалавров и магистров. 2014
7. Петрова, А. В. П30 Управлениецепями поставок: учебное пособие/ А. В. Петрова, А. В. Вохмянина. – Екатеринбург : УрГУПС, 2020
8. Логистика снабжения; учебник для вузов. Сергеев В.И. 2015
9. Смирнова Е.А. Управление цепями поставок в международной торговле. Из. СПбГЭУ, 2018
10. T. İmanov. Logistikanın əsasları. Dərslik 2005.


## IX. FƏNNİNMÜHAZİRƏ MƏTNLƏRİ

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materiallarıelektron formatda yerləşdirilir.

## X. MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| **Həftə** | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| | **Mövzu 1.** Təchizat zəncirinin idarəedilməsi: əsas anlayışlar və terminlər | Təchizat zənciri anlayışı, onun təkamülü və tarixi inkişaf mərhələləri. TZİE inkişafını şərtləndirən əsas amillər. TZ mahiyyəti və onun logistika ilə qarşılıqlı əlaqəsi. TZİE mahiyyəti, məqsədi, metodologiyası və elmi bazası. Təchizat zəncirinin idarəedilməsinin predmeti, metodu, əsas prinsipləri və funksiyapları, onların xarakteristikası. Təchizat Zəncirinin idarə edilməsinin strukturu, onun formalaşdırılması və inkişaf konsepsiyaları. Müasir dünya iqtisadiyyatında TZİE əsas xüsusiyyətləri, rolu və iqtisadi səmərəliliyi. TZİE-nin normativ-hüquqitəminatı | (1) – Fəsil 1 |

| | | | |
|---|---|---|---|
| | **Mövzu 2.** Təchizat zəncirinin idarəedil-məsinin strategiyası, planlaşdırılması və layihələşdirilməsi | TZİE strategiyanın seçilməsi və strateji nəzarət Strateji uyğunluğa nail olmaq və onun saxlanılması yolları. Strateji əhatə dairəsi və onun genişləndirilməsi Rəqa- bət və təchizat zənciri strategiyaları. TZ strategiyasının növləri, onların müqayisəl xarakteristikası. TZ-də in- sorsinq-autsorsinq strateji həlləri. TZİE-də strateji plan- ların rolu və iqtisadi səmərəliliyi. Strateji planlaşdır- manın mərhələləri TZİE-də planlaşdırmanın məqsədi, prinsipləri funksiyaları, metodları, növləri və rolu. TZİE-nin struktur planı. TZ ümumi və strateji planlaş- dırma Plan layihələrinin hazırlanması, tərtibi və təsdi- qi Satış və əməliyyatların planlaşdırılması. TZİE-də layihələşdirmənin əhəmiyyəti və ona təsir edən amillər TZİE-si proseslərinin layihələşdirilməsi strategiyası TZİE-nin layihələşdirilməsi qərarları, onların əhəmiy-yətivə qəbuledilməsi. | (1) – Fəsil2 |
| | **Mövzu 3.** Təchizat zəncirinin dəyər yaradan komponentlərvə əsas performans göstəriciləri | TZ inkişafına təkan verən amillər. Firmanın fəaliy-yətinin əsas maliyyə göstəriciləri. Hər hansı bir təc-hizat zəncirinin fəaliyyətini müəyyənləşdirən təkan verici əsas logistik amillər - obyektlər, ehtiyatlar və nəqliyyat - və üç qarşılıqlı funksional amillər - məlumat, mənbə və qiymətlər | (1) – Fəsil3 |
| | **Mövzu 4**. Təchizat zəncirində paylayıcı şəbəkələrinin layihələşdirilməsi | Distribüsiya anlayışı, təchizat zəncirində onun əhəmiy-yəti. Paylayıcı şəbəkənin layihələşdirilməsi və ona təsir edən amillərin (müəssisənin yerləşməsi, bazarın tutu-mu, bazar bölgüsü və.s) müəyyənləşdirilməsi. Paylayıcı şəbəkənin dizayn variantları, onların güclü və zəif tərəf-lərinin qiymətləndirilməsi. Onlayn satış və paylama şəbəkəsi. Onlayn satış proqramları və paylama şəbəkə-sində onların rolu. Paylayıcı şəbəkənin layihələşdiril-məsi üçün əsas qərarlar, onların qəbul edilməsi. Payla-ma şəbəkəsində avadanlığın yerləşdirilməsi və güclərin bölüşdürülməsiüçün modellər. | (1) – Fəsil4 |
| | **Mövzu 5**. Qlobal təchizat zənciri şəbəkələrinin layihə-ləşdirilməsi və müasir yanaşmalar | Qloballaşma, təchizat zəncirinin idarəedilməsində onun rolu. Təchizat Zəncirinin qlobal problemləri, onların optimallaşdırılması. Qloballaşmanın təchizat zənciri şə-bəkələrinə təsiri. Qlobal təchizat zənciri üçün risk mən-bələrinin müəyyənləşdirilməsi. Risklərin azaldılması strategiyası və tənzimlənməsi. Qlobal TZ risklərin idarə edilməsi. Qlobal təchizat zənciri şəbəkələrinin dizayn qərarlarının qiymətləndirilməsinə müasir yanaşmalar Qeyri-müəyyənlik şəraitində Qlobal Təchizat Zənciri-nin şəbəkə-dizayn qərarlarının qiymətləndirilməsi üçün **istifadə olunan metodologiyalar.** | (1) – Fəsil6 |

| | | | |
|---|---|---|---|
| | **Mövzu 6.** Təchizat zəncirində tələbin proqnozlaşdırılması | Təchizat Zəncirində tələb və tələb proqnozu. Tələbin proqnozlaşdırılmasına verilən əsas tələblərin,idarə edilməsi. Tələbin proqnozlaşdırılmasında informasiyanın rolu və əhəmiyyəti. Təchizat Zəncirində tələbin proqnozlaşdırılmasında informasiya texnologiyalarının rolu. Proqnozun növləri, onların xarakteristikası. Proqnozun əsas vasitələri və proqnozlaşdırma üsulları. Təchizat Zəncirində proqnozlaşdırmanın tətbiqi və onun qiymətləndirilməsi. Tələbin proqnozlaşdırılmasının təchizat zəncirinə təsiri. Tələbin proqnozlaşdırılması metodları. Zamanseriyalarının proqnozlaşdırma metodları. | (1) – Fəsil7 |
| | **Mövzu 7.** Təchizat zəncirində satış və əməliyyatların planlaşdırılması və koordinasiya | Satış əməliyyatlarının planlaşdırılmasında tələb və təchizatın rolu, onların qarşılıqlı əlaqəsi, təchizatın planlaşdırılması, idarə edilməsi. Tələbdə baş verən dəyişikliklərin TZ proqnozların hazırlanmasına təsiri. Satış və əməliyyatların planlaşdırılması və proqnozların hazırlanmasında informasiyanın rolu və əhəmiyyəti. Koordinasiya anlayışı, təchizat zəncirində onun rolu və əhəmiyyəti. TZ-nin koordinasiya elementləri və əsas istiqamətləri. TZ koordinasiya maneələri və onların aradan qaldırılması. Fasiləsiz və yeni mal ehtiyatlarının idarə olunmasında koordinasiyanın rolu. Satış və əməliyyatların birgə planlaşdırılması, proqnozlaşdırılması və təmin olunmasında koordinasiyanın əhəmiyyəti. | (1) – Fəsil9-10 |
| | **Mövzu 8.** Təchizat zəncirində anbar logistikasi və ehtiyatların idarə edilməsi | Təchizat Zəncirində logistik anbarlara verilən əsas və texniki tələblər. Anbarda yerinə yetirilən logistik əməliyyatların təsnifatı. Təchizat Zəncirində mal-material ehtiyatlarının toplanması, saxlanılması və bölüşdürülməsi əməliyyatlarının yerinə yetirilməsində anbarların rolu. Təchizat Zəncirində mal ehtiyatlarının optimal səviyyəsi və ona təsir edən amillər. Mövcud mal ehtiyatlarının idarə edilməsinin strategiya və taktikası. Ehtiyatların idarə olunması üçün logistik sistemin layihələşdirilməsi və onun metodiki əsasları. Mal ehtiyatlarının yaradılması üçün çəkilən xərclərin müəyyən edilməsi. Təchizat Zəncirində malehtiyatlarının yaradılması və **səmərəli idarə edilməsində ticarət təşviqinin rolu** | (1) – Fəsil11 |
| | **Mövzu 9.** Təchizat zəncirində qeyri-müəyyənlik və risklərin idarə edilməsi | Təchizat Zəncirində qeyri-müəyyənlik anlayışı, səviyyəsinin müəyyən edilməsi və tənzimlənməsi. TZ-də qeyri-müəyyənlik problemləri, onların aradan qaldırılması. TZ qeyri-müəyyənliyin qlobal optimallaşdırılması və idarə edilməsi. Qeyri-müəyyənliyin təhlükəsizlik eytiyatlarına təsiri. Doldurma siyasətlərinin təhlükəsizlik eytiyatına təsiri. Eytiyatların idarə olunmasında informasiya texnologiyalarının rolu. Risk anlayışı, onun mahiyyəti, idarə edilməsinin əhəmiyyəti. **Risklərin tənzimlənməsi metodları. Risklərin təsnifatı və risk dərəcəsinin qiymətləndirilməsi.** | (1) – Fəsil12 |

| | | | |
|---|---|---|---|
| | **Mövzu 10. Təchizat zəncirində nəqliyyat şəbəkələri** | Təchizat Zəncirində nəqliyyatın rolu, mahiyyəti, funksiyaları. Nəqliyyat infrastrukturu, nəqliyyat sistemləri və nəqliyyat xidmətlərinin TZ rolu. Nəqliyyat xidmətinin maddi-texniki bazası və strategiyası. Nəqliyyat vasitələrinin növləri, onların təsnifatı. TZ-də nəqliyyat vasitəsi növünün seçilməsinə təsir edən amillər. Logistik yük vahidi konsepsiyası. Yük daşımalarının növləri, planlaşdırılması və idarə edilməsi. Beynəlxalq yük daşımalarının təşkili. Yük daşımaları müqaviləsi. TZ nəqliyyat şəbəkəsinin layihələşdirilməsi üçün dizayn variantlarının seçilməsi. Nəqliyyat şəbəkəsinin idarə edilməsində strateji, dizayn, planlaşdırma və əməliyyat qərarlarının seçilməsi və qəbuledilməsi. TZ-də nəqliyyat şəbəkəsinin layihələndirilməsində İT-nin rolu. | (1) – Fəsil14 |
| | **Mövzu 11.** Təchizat zəncirinin idarə **edilməsində satinalma qərarları** | TZİE qərarların əhəmiyyəti və rolu. Qərarların hazırlanması və qəbul edilməsi mərhələləri. Qərarların hazırlanmasının informasiya təminatı və ona verilən əsas tələblər. Satınalma tezliyi və satınalma fəaliyyətinin təsnifatı. Satınalmada informasiyanın əhəmiyyəti. Təchizat Zəncirində satınalma qərarlarının əsas göstəriciləri. Daxili mənbələr və ya autsorsinq. Satınalma prosesində fərdi axtarış-mal göndərənlərin formalaşdırılması. Təchizat qərarlarının qəbul edilməsi. TZİE-si qərarlarının qəbul edilməsi mexanizmi və qaydaları. Risk bölgüsü və təchizat zəncirinin effektivliyi. TZİEdə satınalma qərarlarının iqtisadisəmərəliliyi və onuntəyin olunması. | (1) – Fəsil15 |
| | **Mövzu 12.** Təchizat zəncirində qiymətin əmələgəlməsi və gəlirlərin idarə **edilməsi** | Təchizat Zəncirində qiymət amili, onun əhəmiyyəti. TZ-də qiymətin tələb və təklifdən asılılığı. Qiymətin əsas funksiyaları. Qiymətin tənzimlənməsi mexanizmi və metodları: iqtisadi və dolayı. Təchizat Zəncirində qiymət strategiyası. Qiymət siyasəti, qiymətin əmələ gəlməsində onun rolu. Qiymətin əmələgəlməsinin əsas prinsipləri. Qiymətin əmələgəlməsinə təsir edən amillər: əsas və spesifik. Qiymət sistemində rəqabət. TZ-də qiymət səviyyəsinin müəyyən edilməsi mərhələləri və ona təsir edən amillər: daxili və xarici. TZ-də qiymətin əmələgəlməsi şərtlərinin formalaşdırılması və gəlirlərin idarə edilməsində rolu. Müştəri seqmentləri üçün qiymətinəmələgəlməsi və gəlirlərin idarə edilməsi. Tez xa**rab olan və mövsümi mallara tələbat üçün qiymətin əmələgəlməsi və gəlirlərin idarə edilməsi.** | (1) – Fəsil16 |
| | **Mövzu 13. Təchizat zəncirində nəzarət vəaudit** | Təchizat Zəncirində nəzarətin rolu və texniki vasitələri. Təchizat Zəncirinə nəzarətin həyata keçirilməsinə verilən beynəlxalq tələblər. Təchizat Zəncirində risklərin müəyyənləşdirilməsi və idarə edilməsində nəzarətin rolu. Auditin mahiyyəti, məqsədi, funksiyaları və əsas prinsipləri. Logistik auditin əsas göstəriciləri, onların xarakteristikası. Logistik auditin növləri: xarici və daxili audit. Təchizat Zəncirinin idarə edilməsində **nəzarət və logistik auditin həyata keçirilməsində SCOR-modelindən istifadənin əhəmiyyəti.** | (6) – Fəsil4 |

| | | | |
|---|---|---|---|
| | **Mövzu 14.** Təchizat zəncirinin idarə edilməsində informasiya texnologiyaları | Təchizat Zəncirinin idarə edilməsində informasiyanın rolu və əhəmiyyəti. Təchizat Zəncirinin idarə edilməsində istifadə olunan informasiya texnologiyalarının rolu, tarixi inkişaf mərhələləri və təsnifatı. TZ-nin informasiya texnologiyaları şəbəkəsi. Müştərilərlə əlaqənin idarə edilməsi. TZ-nin daxili idarəedilməsi. Təchizatçı əlaqələrinin idarə edilməsi. Satış əməliyyatlarının idarə edilməsi. İT-da risklərin idarə edilməsi. TZ-də informasiya axınlarının idarə edilməsi. Vahid informasiya bazasının və kommunikasiya sisteminin yaradılması. İnformasiyanın ötürülməsi sistemi. | (1) – FəsilA |
| | **Mövzu 15. Davamlılıq və Təchizat Zənciri** | Təchizat zəncirində davamlılıq anlayışı, əhəmiyyəti, məqsədi, tarixi, rolu. Davamlılığın ölçüləri, əsas meyarları. Korporativ sosial məsuliyyətin mahiyyəti, əsas sütunları. Müxtəlif istiqamətlərdə davamlılığın yaxşılaşdırılması imkamları. Təkmilləşdirmə üçün stimulların, tənzimləmələrin rolu. Tədarük zənciri elementləri və davamlılıq. Qapalıdövrətəchizat zənciri. | (1) – Fəsil17 |

## XI. FƏNN ÜZRƏ KURS İSİ

Fənnüzrə kurs isi nəzərdə tutulmayıb

**Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqiardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nailolmaq üçüntələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlətanış olmalı;
2) Müvafiq mühazirə materiallarınıdiqqətlə öyrənməli;
3) Mövzu üzrətövsiyə edilən ədəbiyyatıoxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sualüzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistemüzrə 0-10 balarasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir.

## XII. FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda ) tələbənin topladığı balın yekun miqdarına görəonun yekun biliyi aşağıdakı kimiqiymətləndirilir:

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çoxyaxşı** | **B** |
| **71 – 80 bal** | **yaxşı** | **C** |
| **61 – 70 bal** | **kafi** | **D** |
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

Tələbənin topladığı yekun bal 51 baldan aşağıolduqda (yəni onun biliyi “qeyri-kafi”qiymətləndirildikdə), tələbə bu fəndən kredit qazanmır və onun fənnüzrə akademik borcu qalır.

DocuSigned by:
2110E2B86DE94C9...

Tərtib etdi dos. Xudiyeva P.T